# Bir fotonun izi ilə...

## Heydər Əliyev dahi şair Hüseyn Cavidin nəşinin Azərbaycana gətirilməsini ona həvalə etmişdi

Ulduz Eyvazqızı



*Bir əsrlik ömrün 100 illik yubileyi ərəfəsində Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi qərar qəbul edir. Bu qərar 1981-ci ilin 21 iyul tarixində 'Kommunist" qəzetində öz əksini tapır. Qərarda yubiley tədbirləri çərçivəsində filisof şair Hüseyn Cavidin Bakı və Naxçıvanda ev muzeyinin açılması, heykəlinin ucaldılması, əsərlərinin teatr repertuarlarına salınması, nəşr olunması, yaşadığı evin qarşısına xatirə lövhəsinin vurulması, 'Cavid Poeziya Teatrı'nın yaradılması nəzərdə tutulmuşdu.*





Yubiley tədbirləri çərçivəsində planlaşdırılan bütün işlər həyata keşirilməkdə idi. 1982-ci il iyunun 23-də Naxçıvanda "Cavid Poeziya Teatrı"nda ilk dəfə olaraq Hüseyn Cavidin anadan olmasının 100 illiyinə həsr olunmuş "Beynəlmiləl poeziya bayramı" keçirildi. Nəzərdə tutulan tədbirlərin reallaşdırılması davam edirdi. 1982-ci il oktyabrın 2-də uzaqgörən siyasətçi, ümummilli lider Heydər Əliyev yubileylə bağlı işlərlə maraqlanmaq üçün Naxçıvana gəlir. Bir qrup ziyalılarla görüşür və görüşdə Hüseyn Cavidin qəbrinin Vətənə gətirilməsi ilə bağlı təkliflər səsləndirilir. Bu təklif Hüseyn Cavidin qəbrinin Vətənə gətirilməsi ilə bağlı artıq üçüncü təklif idi. Çünki bu təklifdən əvvəldə iki dəfə bu mövzu ətrafında fikirlər irəli sürülüb, təkliflər verilsədə nəticəsiz qalmışdı. Uzaqgörən siyasətçi Heydər Əliyev Hüseyn Cavidin qəbrinin Vətənə gətirilməsi ilə bağlı təklifi müsbət qarşılayır və ziyalılara söz verirki, bu istiqamətdə lazım olan bütün köməkliyi göstərəcək. Dahi şəxsiyyət Heydər Əliyev dediyi kimidə edir...

1982-ci il oktyabrn 12-də Naxçıvan Vilayət Partiya Komitəsi şairin cənazəsinin gətirilməsi ilə bağlı qərar qəbul edir. Qərarın içrası komitənin katibi Həmid Cəfərova tapşırılır...

### Danışan şəkil....

"Həmid Cəfərov"... bu adı Bəhruz müəllimə Hüseyn Cavidin ev muzeyində divardan asılmış şəkillərə baxarkən "şəkildəkilərdən yaşayan varmı?" sualına cavab olaraq eşidəndə təccüb və həyacanımı gizlədə bilmədim. O, təccüb, o, həyacan, sual dolu düçüncələr məni Həmid Cəfərovun ünvanına apardı. Artıq yeni bir yola istiqamətləndiyimdən əmindim. Həmid müəllimi görmək və onu dinləmək, illərdir içimdə gəzdirdiyim suallara cavab tapamaq və onu dinlədikcə Hüseyn Cavidin məzarına gedən yolu addım-addım hiss etmək xəyalında idim. Bu xəyalımın gerçəkləşməsində Cavidsevər Bəhruz Axundovun köməyi əvəzsizdir. Nəticədə isə Cavidsevərlərə bu yazını təqdim etmiş oldum... Həmid müəllimin telefon nömrəsini Bəhruz müəllimdən götürüb, zənng etdim. Bu zəng sanki 2025-ci ildən 1937,1941,1982-ci illərə edilən zəng kimi mənə ağır, şərəfli, mənəvi yükü böyük bir yol kimi görsəndi. Telefonda Həmid müəllimin səsini eşitdim. Naxçıvandan, Cavidin vətənindən zəng edən bir cavidsevərdi söylədim... Həmid müəllimin səsinin titrədiyini hiss etdim... Həmid müəllimlə iki saatdan artıq söhbət etdik...

*Özünündə dediyi ki, 'İrkutskıya gedib birdə qayıtdıq". Söhbətimizi sizə təqdim edirəm. Həmid müəllilə sanki yenidən yola çıxdıq. O, mənə hər addımın bir ilə bərabər mənа yükünü ilmə-ilmə izah etdi. Əvvəldə qeyd etdiyim kimi 1982-ci il oktyabrn 12-də Naxçıvan Vilayət Partiya Komitəsi şairin cənazəsinin gətirilməsi ilə bağlı qərar qəbul edir. Qərarın içrası komitənin katibi Həmid Cəfərova tapşırılır... Lakin bu qərarda H.Cavidin vətənə gətirilməsi ilə bağlı heç bir söz, cümlə belə yox idi... Ulu öndər bu qərara digər önəmli planları salmasada, lakin artıq müəyyən qərarlar verilib, məqsədlər arxasınca yola çıxılmışdı. Bu məqsədlə də bir neçə ziyalıya tapşırıqlar verən uzaqgörən siyasətçi öz amalı uğrunda mübarizəsini davam etdirirdi. Bu yolda onu tək buraxmayan ən cəsarətli şəxsiyyət isə Həmid Cəfərov idi.*

Həmid Cəfərov 1938-ci ildə Naxçıvanda, Qaraxanbəyli kəndində doğulub. Orta təhsilini Qaraxanbəyli kənd, Naxçıvan Dəmir Yolu 23 saylı, Bakı şəhərinin Artyom - indiki Pirallahı rayonundakı Maksim Qorki adına 186 saylı məktəblərində alıb. Hərbi xidmətini başa vurandan sonra Artyomdakı neft mədənlərində çilingər kimi əmək fəaliyyətinə başlayıb. Çalışqanlığı, zəhmətkeşliyi, əzmkarlığı tezliklə Artyom rayon komsomol təşkilatında komsomol komitəsində təlimatçı vəzifəsinə irəli çəkilməsinə səbəb olub. İşgüzar gənc təhsilini davam etdirməyi də unutmayıb. Azərbaycan Dövlət Universitetində təhsil alıb. Daha sonra respublikanın ayrı-ayrı rayonlarında komsomol və partiya orqanlarında çalışıb. Bacarığı, işgüzarlığı nəzərə alınaraq, 1976-cı ildə Naxçıvan Vilayət Partiya Komitəsinə işləməyə göndərilib. Həmid Cəfərov 1976-1978-ci illərdə təbliğat və təşviqat, partiya işi şöbələrinin müdiri vəzifələrində çalışıb. O ,həmçinin Moskvada Sov.İKP MK-nın yanında İctimai Elmlər Akademiyasının dinləyicisi olub. İşinə məsuliyyəti və bacarığı nəzərə alınaraq, ona daha yüksək vəzifələr həvalə edilib. H.Cəfərov 1980-ci ildə X çağırış Naxçıvan MSSR Ali Sovetinin deputatı, Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin büro və plenum üzvü, ideoloji iş üzrə vilayət partiya komitəsinin katibi seçilib. İşinə bağlılığı və məsuliyyəti Vətəninə olan sevgisindən qaynaqlanıb. Bu keyfiyyətləri o zaman Azərbaycan KP MK-nın birinci katibi olan Heydər Əliyevin də diqqətindən yayınmayıb. Ulu öndər məhz bu xüsusiyyətlərini nəzərə alaraq, dahi şair və dramaturq Hüseyn Cavidin nəşinin Azərbaycana gətirilməsin ona həvalə edib.



Heydər Əliyev "Bakinski raboçi" qəzetinə verdiyi müsahibələrin birində qeyd edirdi ki, Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən Azərbaycana gətirilməsi üçün SSRİ kimi nəhəng bir dövlətin birinci şəxsinə - Sov.İKP MK-nın Baş katibi Leonid İliç Brejnevə, həmçinin SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri Yuri Vladimiroviç Andropova müraciət edib. Həqiqətən belə bir məsələni həll etmək üçün SSRİ kimi böyük bir dövlətin rəhbərliyi yanında yüksək nüfuza sahib olmaq və onun icazəsini almaq vacib idi. Təbii ki, həmin dövrdə bütün bunları yalnız Heydər Əliyev edə bilərdi".

Həmid Cəfərovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Naxçıvan MRdaxili işlər nazirinin müavini Telman Əliyev və Babək rayonundakı kombinatının fəhləsi, SSRİ Ali Sovetinin deputatı Zakir Nəsirovda vardı.

*Həmid Cəfərov dahi şairin cəsədinin qalıqlarını gətirmək üçün Sibirə yollandıqları vaxtı, həmin ərəfədə yaşadıqları çətinlikləri danışmağa başladı və sanki illər öncəki o yolu yenidən yürüyürmüş kimi his sedirdi özünü. 'Sibirə səfərimizin ilk günündən başlayaraq Cavidlə bağlı bir sıra arxiv sənədləri araşdırıldı. Müəyyən olundu, Hüseyn Cavid 1941-ci il dekabrın 5-də İrkutsk vilayəti Tayşet rayonunun əlillər xəstəxanasında vəfat edib və Şevçenko kəndindəki qəbiristanlıqda 59 saylı qəbirdə torpağa tapşırılıb. Üç gün sonra isə Sov.İKP İrkutsk Vilayət Komitəsində görüş zamanı Cavidin məzarının yerinin müəyyən edilməsinə, bununla əlaqədar İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndini, 1940-cı illərdə burada yerləşən 21 saylı kaloniyanı və əlillər xəstəxanasını tanıyan adamların tapılmasına sərəncam verildi. Sibirdə olarkən Cavidin 'sakini olduğu" əlillər evinin 1956-cı ildə dağıdılması, Sibirin sıx meşələrindəki Şevçenko kəndinin itib-batması, orada indi heç kimin yaşamaması haqda məlumatlar bizi sarsıdırdı. Eyni zamanda 30 dərəcə şaxtada həmin yerlərə getməyin həm mümkünsüz, həm də təhlükəli olduğunu deyirdilər. Lakin bu məlumatlar bizi yolumuzdan saxlaya bilməzdi...*

**(ardı gələn sayımızda)**